

Əbülfəz ÜLVİ





## TORPAĞA

Anam tək əzizdir mənə torpağım,
Çox sinə gərmişəm, sinə torpağa.
Qoymaram ağacdan bircə yarpağım,
Dərd alıb, dərd ilə enə torpağa.

Nə səpsən göyərdir, gülür, sindirir,
Çiyninə qayanı, daşı mindirir,
Mənim torpağımı könlüm dindirir,
Qoymaram kor ələm dinə torpağa.

O mənim qızılım, o mənim ləlim,
Ondan güc alıbdır dağım, dağ kəlim,
Dilini dibindən qoparar əlim,
Kim etmək istəsə tənə torpağa.

Gəc baxsam, bu baxış gözümə mildir,
Ona məhəbbətim, dəryadır, seldir,
Torpağım vətəndir, anadır, eldir,
Hərə bir cür verir məna torpağa.

Ülvi qoymaz onu yaşaya qəmdə,
Ondan yaranıbdır əcdadım həm də,
Tərlə yuyunuram pak olam mən də,
Köçəndə pak köçüm yenə torpağa.

*23.04.2015.*

## BİR EL MƏSƏLİ

Ana da, ata da sevindi, güldü,
İlk övlad, ilk bala qız doğulanda.
Bütün intizarlar qısqandı, öldü,
Necə ki, qış ölür yaz doğulanda.

Oxşayıb, xumardan ayılmadılar,
Başa dolandılar pərvanə kimi.
Bir an da ağuşdan ayırmadılar,
Hər ata sayağı, hər ana kimi.

Balam - balam: - deyə söylənirdilər,
Xürrəm olurdular qığıltısına.
Elə bil indidən öyrənirdilər,
Bir dərdin nə vaxtsa bağırtısına.

Heç bir istəyinə döz demədilər,
Dərhal nə gərəksə hazır etdilər.
Qonşunu ağlatdı söz demədilər,
Körpədir sözünü “kozur” etdilər.

Qız naqis əməldə çəkdikcə avar,
Sandılar çatıblar firavanlığa.
Bu tumar çəkmələr, bu qorumalar,
Tuş etdi uşağı narkomanlığa.

Fəqət üz tutmadı bu qız düz yola,
Adına min cürə ləkə yaxıldı.
Gəlin qolbağını taxmayan qola,
Gəlin olmamışdan qandal taxıldı.

Bitdi bir ömürün naqis əsəri,
Suçlular heyrətdən gözünü döydü.
Beləcə çin oldu bir el məsəli,
Qızını döyməyən dizini döydü.

24.04.2014.

## QINADIM ÖZÜMÜ

Bu sabah dağları kədərli gördüm,
Qəmli baxışıyla mənə baxırdı.
Mən ona içimdə göyərən dərdim,
O, mənə gözündə tənə baxırdı.

Sanki söyləyirdi doymuşam cana,
Qarabağ yurdumu dardan qurtarın.
Yox, asi deyildi dağlar insana,
Deyirdi: - canımı ardan qurtarın.

Bu fəryad qəlbimə iz salırdı, iz,
Heyrətdən nə günəş, nə ay görürdüm.
Ömrümdə ilk dəfə səssiz-səmirsiz,
Sükuta bələnən haray görürdüm.

Bir daha inandım, anladım bu gün,
Əcdadlar dünyanı düz duyubdular.
Dağlar dağ yükünü çəkdiyi üçün,
Onların adını dağ qoyubdular.

Baxdıqca qınadım özüm, özümü.
Əqlim nə anlamır görən, nə bilmir?
Nə üçün dağların düşündüyünü,
Şüurlu insanlar düşünə bilmir.

02.03.2015.

## YOX DEYİRƏM MƏN

Dünyanın işləri dəyişib yaman,
Nəyə əl atırsan, əlin xar qalır.
İndi elə silah kəşf edir zaman,
Canlını məhv edir, cansızlar qalır.

Bu silah görməyir işini asta,
Bəlkə bir kabusdur, bəlkə fələkdir.
Qoynunda yaşamaq olmayacaqsa,
Dünya, dünya kimi kimə gərəkdir.

İşıq gələn yerə barmağın tıxan,
Sanmasın bağlayır yolu Tanrıya.
Tanrı yaratdığın, qurduğun yıxan,
Asilik etmirmi ulu Tanrıya?

Məhv etmək, qan tökmək sayılmır uğur,
Bəlkə də başıdır uğursuzluğun.
İnsanın məhvinə yönələn şüur,
Ən pik nöqtəsidir şüursuzluğun.

Belə icadlara yox deyirəm mən,
Bu kəşflər yar deyil, yara sardılar.
Kaş bu silahları onu kəşf edən,
Ürəkdə sınaqdan çıxarardılar.

08.03.2015.

## FƏRƏCDƏ

*Dostum şair, yazıçı,*
*millət vəkili Fərəc Fərəcova*

Hər sözü üstündə mətin, mərd durur,
Çağlayır dəniz tək vüqar Fərəcdə.
Şöhrət dəryasına elə baş vurur,
Yanılmır çəkdiyi avar Fərəcdə.

Ali hislərini tutmaz his qəti,
Qızıl qızıldırsa deməz mis qəti,
Eşqi, məhəbbəti, mehri, qeyrəti,
İnsafı kübardır, kübar Fərəcdə.

Elə qoyulubdur onda him, təməl,
Dediyi yerinə yetir əlbəəl,
Sanki təbiətə gəlməzdən əvvəl,
Açır gözlərini bahar Fərəcdə.

Sığmır əsərləri təbə, ilhama,
Tanrım yetiribdir onu hər kama,
Son vaxtlar saçına qar yağıb, amma,
Müdriklik rəmzidir bu qar Fərəcdə.

Ülviyə həmdəmdir bu nur, bu şölə,
O elə əzizdir vətənə, elə,
Nə qədər düşünür alimlər belə,
Bilmir qeyri-adi nə var Fərəcdə.

*06.04.2015.*

## ELƏ LƏKƏ VAR...

Yenə də buludlar qara don geyib,
Elə bil qəmi var, yaman günüdür.
Sanki şimşək deyir göy şəhid verib,
Dəyməyin qəlbinə aman günüdür.

Doldurur dərəni, doldurur çayı,
İldırım dağların bağrını sökür.
Elə yağış yağır, sanarsan suyu,
Kim isə doldurub ləyəndən tökür.

Buludlar suvarır bağçanı, bağı,
İstəmir intizar qəhərə çöksün.
Bəlkə də yağışlar yuyur torpağı,
Altına köçənlər pak yerə köçsün.

Elə bil küləyin ağlı qaçıbdır,
Bir anda nə qədər gör yol qət edir.
Səsindən sanarsan o dil açıbdır,
Nəyisə bədii qiraət edir.

İldırım qışqırıb çəkdikcə havar,
Təbiət paklanır, gəlsin güllü yaz.
Amma nakəslərdə elə ləkə var,
Başına min dəniz əndərsən yumaz.

13.04.2015.

## KİŞİ

Ay öz cinsi ilə fəxr edən arsız,
Kişilik o deyil vurub, yıxasan.
Kişilik odur ki, şərtsiz, filansız,
Kişilər içindən kişi çıxasan.

Kişilik odur ki, dözə çətində,
Sevsin, sevgisində təlaş olmasın.
Kişilik odur ki, məhəbbətində,
Məcnun adı alsın, Balaş olmasın,

Kişi var, el ona baxıb gülünclə,
Az qalıb bu ada tamam yadlaşa.
Kişilik adını Fərhad külünglə,
Koroğlu qılıncla yazıb yaddaşa.

Bu adı deməzlər haqqı azana,
Deyən də, deməli naşı adamdır.
Yaxşı iz qoyana, ad qazanana,
Eldə də deyirlər kişi adamdır.

Kişilik, ovqatı çağ olmaq deyil
Gərək o ovqatı eliylə bölsün.
Kişilik, tək kişi doğulmaq deyil,
Gərək öləndə də kişi tək ölsün.

19.04.2015.